

**Sərkarlı Əhməd Sərkar oğlu**

**doktorant**

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

AZ1010, Bakı ş.,Nəsimi r-nu, Azadlıq pr., 20.

serkaroglu@mail.ru

UOT 339.137.2:330.34.01 (479.24)

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN İQTİSADİYYATININ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN ARTIRILMASININ ƏSAS FAKTORLARI: NƏZƏRİ VƏ METODOLOJİ YANAŞMA

səh. 137-146

## Xülasə

*Tədqiqatın məqsədi* – Azərbaycan iqtisadiyyatında rəqabətqabiliyyətliliyə təsir edən əsas şərtlərin və amillərin müəyyən edilməsi ilə əlaqədar nəzəri-metodoloji problemlərin araşdırılması.

*Tədqiqatın metodologiyası* – kompleks yanaşma və təhlil.

*Tədqiqatın nəticələri* – rəqabətqabiliyyətliliyə təsir edən əsas amillərin müəyyən edilməsi və rəqabətqabiliyyətliliyin artırılmasının spesifik xüsusiyyətlərinin göstərilməsi.

*Tədqiqatın məhdudiyyətləri* – Azərbaycanda qeyri-neft sektorunun inkişafı prioritet istiqamət olduğundan yerli və xarici bazarlarda milli məhsulların irəlilədilməsi problemlərinin geniş şəkildə araşdırılması tələb olunur.

*Tədqiqatın praktiki əhəmiyyəti* – tədqiqat və təkmilləşdirmənin rəqabətin artırılması prosesində istifadə edilməsi.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – məhsulların təkmilləşdirilməsinin (*MT*) ən mühüm amil kimi dəyişən tələblər çərçivəsində beynəlxalq standartlar əsasında ölkə iqtisadiyyatının dayanıqlılığına və rəqabətqabiliyyətliliyin möhkəmləndirilməsinə təsirinin göstərilməsi.

**Açar sözlər:** *rəqabətqabiliyyətlilik, innovasiya, istehsal amilləri, məhsulların təkmilləşdirilməsi, iqtisadi artım.*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Ölkənin, firmanın və ya məhsulun rəqabətqabiliyyətlilik problemi dünya səviyyəsindətədqiq edilən ən dinamik və aktual məsələ olaraq qalmaqdadır və hər şeydən öncə qeyd etmək lazımdır ki, onun təhlilinə bir çox faktorlar o cümlədən iqtisadi artım tempinin dəyişməsi, işsizliyin səviyyəsi, ölkənin və ya firmanın müxtəlif kriteriyalar üzrə reytinqdə yeri və.s təsir edir. Buistiqamətdətədqiqatlarmüxtəlifbeynəlxalqtəşkilatlartərəfindənhəmdəyerliiqtisadiinstitutlarvəmüstəqiltədqiqatçıl artərəfindəndavametdirilir. Qlobaliqtisadirəqabətinkəskinhalaldığıbirvaxtdahər-birölkəüçündaxiliiqtisadistabilliyiqorumaqla dünya təsərrüfatında əhəmiyyətli yer tutmaq, insan kapitalının inkişafı və yoxsulluğun azaldılması ən prioritet məsələdir [1, s 62]. Rəqabətqabiliyyətlilik bugun mütləq surətdə qloballaşma ilə əlaqəlidir.

Əmtəə və xidmətlərin rəqabətqabiliyyətliliyi Azərbaycan üçün xüsusilə qeyri-neft sektoru sahəsində mühüm əhəmiyyət kəsb edir. Ölkənin davamlı iqtisadi inkişafını təmin etmək, vətəndaşların rifah halının yüksəldilməsinə nail olmaq, ölkələr arası iqtisadi münasibətlərdə maksimum mənfəət götürmək üçün müasir şərtlər altında dünya iqtisadi sistemində qabaqcıl yerlərdə olmaq ən vacib amildir.

Müasir tədqiqatların təhlili göstərir ki, iqtisadi sahələrin və təsərrüfat subyektlərinin rəqabətqabiliyyətliliyi ön plana çıxmışdır. “Rəqabətqabiliyyətli ölkə” anlayışı ayrılıqda onun inkişafı üçün həlledici əhəmiyyət kəsb etmir. Belə ki, Dövlətin əsas məqsədi vətəndaşların yüksək həyat şəraitini təmin etməkdən ibarətdir. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyini müxtəlif əmtəə və xidmətlər istehsal edən firma və müəssisələr, o cümlədən təsərrüfat subyektləri təmin edir. Sadalanan iqtisadi subyektlər isə hər şeydən əvvəl xərclərin azaldılması və məhsulun diferensallaşdırılması kimi ən əsas rəqabət üstünlüyü verən amillərə malik olmalıdırlar.

Digər tərəfdən isə, dünyada gərgin rəqabət şəraitində ölkənin hər hansı bir şirkətinin uğuru ölkənin rəqabətqabiliyyətliliyini təmin etmək üçün kifayət deyil. Hətta ən yeni texnika və texnologiyaya malik firma və ya müəssisənin rəqabət fəaliyyətini tək davam etdirməsi çətindir. Dövrün tələbinə uyğun olaraq dünya bazarında bir biri ilə qarşılıqlı əlaqədə olan müxtəlif sahələri əhatə edən klasterlər rəqabət aparır. Buna görə də Azərbaycan iqtisadiyyatının və ümumilikdə istehsal edilən məhsulların rəqabətə davamlılığı əsas iqtisadi sahələrin rəqabətqabiliyyətliliyindən asılıdır.

## 2. Rəqabətqabiliyyətlilik probleminə elmi-metodoloji yanaşma

Rəqabətqabiliyyətlilik probleminə müxtəlif iqtisadi yanaşmalar baxımından bir sıra müəlliflər müraciət etmişlər. Metodoloji fərqlərin olmasına baxmayaraq vurğulanmışdır ki, milli rəqabətqabiliyyətlilik ən vacib iqtisadi və sosial problemlərdən biri kimi dövlətin maraq dairəsinə aiddir. Ölkənin rəqabətqabiliyətliliyinə təsir edən, onu başa düşməyə və izah etməyə imkan verən ən mühüm faktor kimi beynəlxalq

ticarətin investisiya fəaliyyətinə təsiri, müxtəlif sahibkarlıq fəaliyyətində kapitalın hərəkətindəki fərqlərin və investisiyaların hərəkətinin məhsulların hərəkəti ilə birbaşa əlaqələndirilməsi əsashesab edilə olar. Bu yanaşma dünya iqtisadiyyatının müasir inkişaf tendensiyaları baxımından öz aktuallığını qoruyur. [2, s. 70-71]

Yuxarıda vurğulananların aktuallığını qeyd edərkən əlavə etmək olar ki, ən əsas məsələ kimi qlobal rəqabət, ölkələrin rəqabət xüsusiyyətləri, inkişafın sosial faktorlarını ön plana çəkmək lazımdır. Porterə görə rəqabətin ən yüksək forması kimi bütün resurslardan səmərəli istifadə etməyə imkan verən innovasiyanın hərəkəti hesab edilir. Lakin insan faktoru innovasiyanın hərəkətini və təsərrüfat subyektlərinin əsas istehsal güclərini təmin edən əsas amildir. İnnovasiyanın hərəkətinin əsasında sosial sfera, elmi tədqiqatlar, marketinq fəaliyyətinin təşkili, işçi qüvvəsinin inkişaf səviyyəsi və firma və ya müəssisənin düzgün təşkili dayanır. Göstərilən resurslar əsasən istehsal müəssisəsindən kənarda formalaşsa da onun potensial inkişaf səviyyəsini müəyyən edir. Qlobal şəraitdə beynəlxalq rəqabətin spesifik resurslarından təsərrüfat subyektlərinin səmərəli istifadə etmək hüququ əldə etmək istəyi onlar arasında rəqabət mübarizəsinə çevrilir. Bir qayda olaraq bu resurslar firmalar tərəfindən deyil ölkə tərəfindən yaradılır. Və buna görə də bu resursları istehsal etmək, daha sonra isə onun nəticələrindən istifadə etmək qlobal rəqabətqabiliyyətliliyin əsas göstəricisidir[3, s 106]. Azərbaycan sosial yönümlü iqtisadiyyata malik bir ölkə kimi qeyd edilən resursların hərtərəfli inkişafını təmin etməklə beynəlxalq rəqabət mübarizəsində önəmli yer tuta bilər, öz daxili bazarını qorumaqla əhalinin tələbatını lazımı səviyyədə ödəyə bilər və iqtisadiyyatın dayanıqlılığı artmış olar.

İqtisadi inkişaf səviyyəsinə görə iqtisadiyyat birinci mərhələdə maya dəyərinin azaldılmasına xidmət edən istehsal amillərinin inkişafına, ikinci mərhələdə istehsalın effektivliyini təmin edən investisiyalara, üçüncü mərhələdə isə unikal qiymət yaradıcı faktor olan innovasiyaya əsaslanır. Beləliklə deyə bilərik ki, innovasiya rəqabətqabiliyyətliliyin əsas mənbəyi kimi baxılır. İnnovasiya mütləq surətdə iqtisadi artımın və uğurlu ticarətin əsas mənbəyidir. İnvestisiyanın rəqabətqabiliyyətliliyə tədqiqat və təkmilləşdirmə baxımından səmərəli menecmentin tətbiqi nəticəsində müsbət təsir etdiyini deyə bilərik. Həmin investisiyaların nəticələrini əsasən əldə edilən patentlərə görə müəyyənləşdirilməlidir. Ümumilikdə qeyd etmək olar ki, innovasiyanın rəqabətqabiliyyətliliyi artırdığı və iqtisadi sahənin ixtisaslaşmasına təsir etdiyi ortaya çıxarılmışdır.

Ümumi istehsal amillərini və sahə ixtisaslaşmasını tədqiq edərkən qarşılıqlı əlaqə olduğu aşkara çıxır. Ümumi istehsal amillərinin inkişafı müvafiq iqtisadi sahə üçün xarakterik olan istehsal amillərinin stimullaşdırır ki, bu da həmin iqtisadi sahənin məhsuldarlığının artmasına imkan verir. Əgər firma və ya müəssisə texnologiya ilə əlaqəli aktivlərə, tədqiqat və təkmilləşdirməyə yönəldilən investisiyalara, yüksək ixtisaslı kadrlara malikdirsə ümumi istehsal amillərinin inkişafına və bu da öz növbəsində həmin iqtisadi subyektin rəqabətqabiliyyətliliyinin artmasını təmin edir.

Rəqabətqabiliyyətliliyə təsir edən ən mühüm amillər aşağıdakılardır[13]:

- ❖ tədqiqata yönəldilən birbaşa investisiyalar
- ❖ yerli və xarici tədarükçülərdən kapital məhsullarının alınması yolu ilə dolayı investisiyalar
- ❖ orta əmək haqqı
- ❖ fiziki kapitala investisiyalar
- ❖ daxili bazarda tələbin həcmi və.s

Ölkənin böyüklüyündən eləcə də iqtisadi sahənin əhatə dairəsindən, texnologiyanın fərqindən asılı olaraq rəqabət amilləri təsir qabiliyyətinə malikdir. Birbaşa investisiyaların səmərəliliyi əsasən texnoloji baxımdan yüksək inkişaf səviyyəsinə malik ölkələr üçün xarakterikdir. Eyni zamanda ölkədə geniş sahələrin rəqabətqabiliyyətliliyi aparılan tədqiqatlardan asılıdır, digərlərində isə innovasiya yönümlü vasitələrin xaricdən gətirilməsi baş verir. Bununla belə tədqiqat və təkmilləşdirməyə yönəldilən investisiya fiziki kapitala yatırılan investisiyadan daha səmərəlidir və bu hal bütün iqtisadi sahələr və ölkələr üçün keçərlidir.

Azərbaycanda nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və nəqliyyat müstəqilliyinin genişləndirilməsi istiqamətində davamlı və məqsədyönlü iş aparılır. Ölkənin nəqliyyat-logistika sisteminin inkişafına çoxmilyardlı sərmayələr yatırılır, respublikada ən müasir beynəlxalq standartlara uyğun avtomobil yollarının inşası və modernizasiyası həyata keçirilir [4, s. 116]. Qeyd edilən məqsədyönlü tədbirlər ölkə regionları arasında nəqliyyat əlaqəsinin təkmilləşməsinə və məhsulların, o cümlədən lazımi resursların daşınmasında xərclərin azalmasına və müəyyən mənada rəqabətqabiliyyətliliyin artmasına təsir edir.

## 3. Tədqiqat və təkmilləşdirmənin Azərbaycanda qeyri-neft sektoru məhsullarının rəqabətqabiliyyətliliyinə təsiri

Azərbaycan Respublikasında tədqiqat və təkmilləşdirməyə (*TT*) investisiya yatırmaq üçün münbit şərait var və bundan səmərəli istifadə etmək lazımdır. Azərbaycanda davamlı inkişafın təmin edilməsi üzrə milli strategiyanın həyata keçirilməsində rəqabət amillərinin tədqiqi əsas faktordur. Rəqabətqabiliyyətlilik probleminin həllinə elmi yanaşma, nəzəri-metodoloji aspektlərin müəyyən edilməsi, Azərbaycanın milli dövlətçilik siyasətinə uyğun olaraq sosial-iqtisadi inkişafın əsas prioritetlərinin seçilməsi adekvatlıq tələb edir. Xarici iqtisadi strategiyanın və siyasətin müəyyənləşdirilməsi zamanı ölkə vətəndaşlarının və iqtisadi subyektlərinin fundamental maraqlarına uyğun strategiya seçilməlidir. Bu strategiyada daxili təsərrüfat subyektləri üçün prinsipial əhəmiyyətə malik olan fəaliyyət istiqamətləri formalaşdırılmalı və bu zaman qeyd edilən istiqamətlərin ölkənin gələcək təsərrüfat və sosial həyatında yarada biləcəyi qeyri müəyyənlik hallarının qarşısının alınması vacibdir.

"Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasının hazırlanması davamlı inkişafın təşkili baxımından stabil soial-iqtisadi göstəricilərin əldə edilməsi, ekoloji balansın qorunub saxlanması və təbii resurslardan rasional istifadə ilə istehlakçı təbəqəsinin tələbatını ödəmək və gələcək nəsillər üçün iqtisadi dayanıqlı mühitin yaradılmasına zəmin yaradır [5]. Bütün iqtisadi çətinliklərə baxmayaraq bütün şərtlərdə konsepsiyadan irəli gələn tələblərin yerinə yetirilməsi cəmiyyət və dövlət olaraq hər kəsin marağında olmalıdır.

Rəqabətqabiliyyətliliyin möhkəmləndirilməsində məhsulların təkmilləşdirilməsi (*MT*) ən mühüm amil kimi dəyişən tələblər çərçivəsində beynəlxalq standartlara cavab verməklə ölkə iqtisadiyyatının dayanıqlılığını artırır. MT bazar şərtləri, məhsulun istehsalı, satışı və çatdırılması da daxil olmaqla özünəməxsus tədbirlər planını əhatə edir. Yəni, istehsalçı (ölkə, müəssisə və ya firma) bazar imkanlarından istifadə etməklə istehlakçının tələbatını və məhsula qarşı fikirlərini öyrənərək adekvat addımlar atmaqla məhsulu məqbul qiymətə satmalıdır. Məhsulun təkmilləşdirilməsi prosesi (MTP) istehsalçının bu haqda fikirlərini, potensial proyektlərini və kommersiya planları kimi addımlarını özündə birləşdirir. MTP fiziki fəaliyyətdən daha çox intellektual və təşkilati prosesdir. [9. s.19] Yerli və beynəlxalq əhəmiyyətli milli kompaniyalar, şəxsi təsərrüfatlar fəaliyyətin effektivliyini artırmaq məqsədilə innovasiya yönümlü investisiyaları artırmaqla yanaşı nəzarət tədbirlərini də kompleks şəkildə həyata keçirməlidir.

Milli rəqabətqabiliyyətlilik ölkənin istehsal gücü ilə əmtəə və xidmətlərini daxili və xarici bazarda reallaşdırmaq, bu əsasda da əhalinin yüksək gəlirliyini təmin etmək

**Cədvəl 1. Makroiqtisadigöstəricilər**

| Göstəricilər | 2016-cı ilin yanvar-sentyabr ayları, faktiki | 2016-cı ilin yanvar-sentyabr ayları 2015-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | 2015-ci ilin yanvar-sentyabr ayları 2014-cü ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Ümumi daxili məhsul, milyon manat | 43 436,3 | 96,1 | 103,7 |
| o cümlədən qeyri-neft ÜDM | 28 536,2 | 93,9 | 106,4 |
| Əhalinin hər nəfərinə düşən ÜDM, manat | 4 512,5 | 95,0 | 102,5 |
| Sənaye məhsulu, milyon manat | 23 029,6 | 100,2 | 102,1 |
| o cümlədən qeyri-neft sənayesi | 6 075,4 | 103,6 | 110,2 |

*Mənbə: məlumatlar Azərbaycan Dövlət Statistika Komitəsindən götürülmüşdür.*

qabiliyyətidir. Azərbaycan Respublikası qlobal proseslərdə fəal iştirak etməklə makroiqtisadi səviyyədə onun negativ təsirlərini neytrallaşdırmaqla stabil iqtisadi artıma nail olmağa çalışır. Xüsusilə əsas məqsəd qeyri-neft sektorunun daxili tələbatı tam ödəyərək ixracyönümlü səviyyəyə çatması və qeyri-neft sənaye sahələrinin iqtisadi artımda əhəmiyyətli mövqeyinin təmin edilməsidir [6].

Azərbaycan istehsal edilənməhsulların xarici bazarlara çıxarılması, ixrac marşrutlarının şaxələndirilməsində (*diversifikasiyası*) Xəzər ölkələri içərisində həm Qazaxıstandan, həm də Türkmənistandan əlverişli vəziyyətdədir. Onlarla müqayisədə Azərbaycanın enerji və qeyri-enerji məhsullarının ixracına aid riskləri çox aşağı səviyyədədir [7. s. 127]. Azərbaycanın rəqiblərdən əsas üstünlüyü əlverişli iqtisadi-coğrafi mövqedə yerləşməsi, nəqliyyat-kommunikasiya sferasının və istehsal infrastrukturunun bütövlükdə yenidən qurulması, əhəmiyyətli həcmdə münbit torpaq resurslarının və iqlim şərtlərinin iqtisadi fəaliyyətə uyğunluğu, enerji resursları ilə özünü təmin etmək imkanları, elmi-texniki potensialın inkişafı və qeyri-neft sektorunda çoxşaxəli istehsal müəssisələrinin yaradılması, o cümlədən yüksək ixtisaslı kadların mövcudluğu və s. ilə müəyyən edilir.

Xüsusilə əlverişli münbit torpaqlar Azərbaycanda strateji məhsul olan taxılın istehlakında xaricdən asılılğa qoymaq üçün əsas yaradır. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı və rəqabət mühitinin dəstəklənməsi üçün iri fərdi taxılçılıq təsərrüfatlarının yaradılması ən rentabelli məsələ kimi ərzaq təhlükəsizliyinintəmin edilməsində və əhalinin maddi rifahının yaxşılaşdırılmasında mühüm rol oynayacaq faktor kimi kəndli-fermer və ailə təsərrüfatlarının yeni texnologiyalara həssaslıqlarının daha da gücləndirilməsində dönüş yaradaraq xırda təsərrüfatların kiçik torpaq sahiblərinin kooperasiya və assosiasiyalarda birləşməsində mühüm amil olacaqdır. [8. s. 10]

Azərbaycanda reallaşdırılan iqtisadi proqramların məqsədi neftdən asılı iqtisadiyyatın əsas istiqamətlərinin stimullaşdırılması, strukturunun yenidən formalaşdırılması və istehsal prosesinin yenidən qurulması üçün müxtəlif tədbirlərin görülməsi ilə rəqabət imkanlarından maksimum səviyyədə istifadə etməyə imkan verən vasitələrdən istifadə etməklə ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılmasıdır.

## 4. Yerli səviyyədə rəqabətqabiliyyətlilik amillərinin qruplaşdırılması və onlara təsir imkanlarının müəyyənləşdirilməsi

Azərbaycanda rəqabətə davamlılıq imkanı verən üstünlüklərdən müəyyən qədər səmərəli istifadə edilə bilməməsinin obyektiv səbəbləri var ki, bunlara innovativ infrastrukturun inkişafını başa vurmaması, firma və müəssisə səviyyəsində idarəetmənin kifayət qədər qənaətbəxş olmaması, bazar iqtisadiyyatı şərtləri çərçivəsində fəaliyyət göstərə biləcək kadrların özəl sektora aid istehsal müəssisələrində düzgün

yerləşdirilməməsi, ölkənin əsasən idxaldan asılılığı və s. aiddir. Bununla belə rəqabətqabiliyyətliliyin artırılması sahəsində rasional istiqamət hazırlanaraq seçilmişdir. Dünya Bankının "Doing business" hesabatında Azərbaycanda vergi ödənişləri ilə bağlı 1 pillə və xarici ticarətlə bağlı məsələlərdə isə 2 pillə irəliləmə qeyd edildiyi görülməkdədir[10].

Azərbaycanın xarici iqtisadi əlaqələrdə rəqabətqabiliyyətliliyinin təmin edilməsinin əsas potensial istiqamətlərini aşağıdakı kimi göstərmək olar:

- ölkənin regional baxımdan əldə edə biləcəyi ticari faydaların dəqiq müəyyən edilməsi;
- yüksək standartlara cavab verən məhsullarla yeni beynəlxalq bazarlara çıxmaq və ənənəvi bazarlarda ixracın strukturunun şaxələndirilməsi;
- beynəlxalq təcrübədə istifadə edilən proteksionizm siyasətini həyata keçirməklə dövlətin xarici ticarəti tənzimləmə metodlarını ÜTT-nin prinsiplər sisteminə və mexanizmlərinə uyğunlaşdırması;
- beynəlxalq bazarlarda iqtisadi maraqlarının və bərabər şərtlər altında fəaliyyət göstərmək imkanlarının yüksək səviyyədə qorunması;
- resurslara, enerji və digər materiallara xərclərin optimallaşdırılması və idxalın rasional şəkildə minimumlaşdırılması nəticəsində əlavə dəyərin yaradılması vasitəsilə istehsalın genişləndirilməsi;
- ölkənin ixrac potensialının artırılması üçün xarici və daxili investisiyaların cəlb edilməsinin effektiv cəlb edilməsi yollarını, mexanizmlərin və inzibati şərtlərinin asanlaşdırılması.

Beləliklə xarici iqtisadi fəaliyyətin makroiqtisadi baxımdan səmərəliliyinin artırılması yerli təsərrüfat subyektlərinin və Azərbaycan istehsalı olan məhsullarının rəqabətqabiliyyətinə mənfi təsir edən halların aradan qaldırılmasından asılıdır. İnkişaf etmiş və yeni sənaye ölkələrində əldə edilən müvəffəqiyyətlərin əsasında emal sənayesi durur. Xüsusən də maşınqayırma onlar üçün mühüm rol oynayır. Kim dünya bazarına daha çox və daha keyfiyyətli maşınqayırma məhsulu çıxara bilirsə o ölkə daha sürətlə inkişaf edir. Bazara rəqabət dözümlü maşınqayırma məhsulu çıxarmaq, reallaşdırmaq və çoxlu mənfəət əldə etmək isə ilk növbədə elmi-texnika istehsal tsiklindən baş çıxarmağı tələb edir. [11. s. 278]

Azərbaycana aid məhsul istehsalçılarının və onların əmtəə və xidmətlərinin rəqabətqabiliyyətliliyini aşağıdakıları təmin etməklə artırmaq olar:

- yerli təsərrüfat subyektlərinin inkişaf etmiş ölkələrdən "nou-hou" və yüksək texnologiyaların cəlb edilməsi yolu ilə fəaliyyətlərini təşkil etməsini stimullaşdırmaq;
- transmilli lahiyələrdə dünyanın aparıcı şirkətləri ilə korporativ əlaqələrin qurulması və milli ixracın inkişafına yol açmaq;
- beynəlxalq nəqliyyat xidmətləri bazarında özünə məxsus nəqliyyat sisteminin təqdim edilməsiiə onun rəqabətqabiliyyətliliyini inkişaf etdirmək;

- beynəlxalq şirkətlər və korporasiyalarla ticari münasibətlərin qurulması prinsiplərini asanlaşdırmaq, gömrükdən keçirilən məhsulların rəsmiləşdirilməsinin daha da asanlaşdırılması və məlumatların ümumilikdə elektron mübadiləsini həyata keçirmək;
- təsərrüfat subyektlərinin səmərli idarəedilməsini təmin etmək;
- Azərbaycana məxsus ixrac məhsullarının beynəlxalq standartlara cavab verməsi üçün istehsal müəssisələrində beynəlxalq standartlar sisteminə uyğun keyfiyyətin idarəedilməsi mərkəzlərini yaratmaq;
- ixrac məhsullarının keyfiyyətinin və sertifikatlaşdırma sisteminin inkişafı, dünya səviyyəsində qəbul edilmiş istehlakçı tələbatına və ekoloji təhlükəsizlik qaydalarına uyğunluğu, həmçinin istifadə qaydalarının rahatlığı və təhlükəsizliyi, beynəlxalq standartlar əsasında yerli ekoloji və istehsal standartlarının hazırlanması;
- qabaqcıl texnologiyadanistifadə edilməklə məhsullarının ixracının stimullaşdırılması, elmtutumlu, enerji və resursqoruyucu vasitələrdən istifadə edilməsi, həmçinin ixrac layihələrinin güzəştli kreditləşdirilməsi, müəssisə və firmalarda istehsalın effektivliyinin, elmtutumluluğunun artırılması və modern texnologiyadan istifadənin səviyyəsinin artırılması istiqamətində elmi-texniki siyasətin həyata keçirilməsi və innovativ mexanizmlərin təkmilləşdirilməsinin həyata keçirilməsi;
- yerli məhsulların patentləşdirilməsini həyata keçirməklə ixrac məhsullarının orijinallığını və hüquqi müdafiəsini təmin etmək.

Milli iqtisadiyyatın innovasiyalı inkişaf mexanizminin formalaşması prosesinə sistemlik mövqeyindən yanaşmaq lazımdır. Bu onunla şərtlənir ki, sistem - qarşılıqlı əlaqəli elementlərin məcmusudur, hansıki yeni xassəsi olan məqsədli təhsil təşkil edir, onun ayrı-ayrı hissələri yoxdur və yalnız innovasiyalı inkişaf mexanizminin bütün elementləri məcmusunda həmin proseslərin daha səmərəli idarə edilməsinə nail olmaq mümkündür. Bu yanaşmanın ifadə olunma forması milli iqtisadiyyatın innovasiyalı inkişafı konsepsiyasının hazırlanmasıdır. [12. s. 89]

Dünya praktikasını öyrənərkən aydın olur ki, istehsal fondlarının dövrün tələbinə cavab verməməsi, köhnəlmiş texnologiyadan istifadə, idarəetmə səviyyəsinin aşağı olması, yüksək vergi yükü, rəqabət mühitinin əksikliyi və hüquqi bazanın kifayət etməməsi iqtisadi inkişafı və rəqabətqabiliyyətliliyiləngidən faktorlar arasında xüsusilə seçilir. Rəqabətqabiliyyətliliyi təmin etmək yalnız bu problemin həllinə kompleks yanaşma ilə mümkündür. Tək proqramların qəbul edilməsi ilə deyil texnika və avadanlıq parkının yenilənməsi, istehsal sahələrinin strukturunun və təsərrüfat subyektlərinin fəaliyyətini stimullaşdıran amillərin müəyyən edilməsi ilə iqtisadi aktivliyi artırmaq lazımdır. Bunun üçün normativ-hüquqi aktları daimi olaraq dəyişən iqtisadi mühitə, ölkənin sosial-iqtisadi proqnoz göstəricilərinə uyğunlaşdırmaqla perspektiv imkanların aşkara çıxarılması vacibdir.

## 5. Nəticə

Hal-hazırda Azərbaycanda iqtisadi artımın və əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün obyektiv şərtlər yaradılmışdır. Bu vəziyyət milli məhsulların daxili və beynəlxalq bazarda rəqabətqabiliyyətliliyinin artırılması üçün qarşıda duran mühüm məsələlərin həllinə imkan verəcək.

Azərbaycannın iqtisadi inkişafının prioritet istiqamətlərinin nəzəri təhlilini apararkən belə bir nəticəyə gəlmək olur ki, rəqabətqabiliyyətliliyin artmasının vacib şərtlərindən biri ümummilli məhsulda özəl sektorun payı və inkişaf tempi, yeni iş yerlərinin açılması, innovasiyanın tətbiqi, istehlakçı hüquqlarının müdafisəi və bazarda rəqabətin dəstəklənməsi siyasəti, bazar yönümlü institusional quruluşların yaradılması, təşkilatın və idarəetmənin təkmilləşdirilməsi, xüsusən istehsal sferasında əmək məhsuldarlığının artırılması, özəl sektora daxili və xarici investisiyaların cəlb edilməsi istiqamətində işlərin aparılması, daxili bazarın genişləndirilməsi və beynəlxalq bazarlarda fəaliyyətin şaxələndirilməsi vacib əhəmiyyətə malikdir.

Müasir dövrdə rəqabətqabiliyyətlilik tək makroiqtisadi göstəricilərə yox, həmçinin işçi qüvvəsinin keyfiyyətinə və innovasiyanın praktikaya tətbiq edilməsi imkanlarına əsaslanır. Yüksək nəticələrə malik təhsil sistemi, istehsalçı səviyyəsində operativ idarəetmənin təşkili və digər faktorlarla birgə fəaliyyət Azərbaycan iqtisadiyyatının innovasiya iqtisadiyyatına çevrilməsi və onun rəqabətqabiliyyətliliyinin artırılması üçün  ən vacib "mühərrikidir".

**Ədəbiyyat siyahısı:**

1. Economic Development. Eleventh Edition. Michael P. Todaro,  New York University.  Stephen C. Smith, The George Washington University.  P.62 - İqtisadi inkişaf. 11-ci nəşr. Maykl P. Todaro, Nyu-York Universiteti, Stefan C.Smit, corc Vaşinqton Universiteti. Səh.62
2. Theories of international trade, foreign direct investment and firm internationalization: a critique. Robert E. Morgan Cardiff Business School, University of Wales, UK Constantine S. Katsikeas Cardiff Business School, University of Wales, UK. P. 70-71 - Beynəlxalq ticarət nəzəriyyələri, birbaşa xarici investisiya və müəssisənin beynəlmiləlləşməsi. Robert E. Morqan., Konstantin S. Katsikeas.  Kardif Biznes Məktəbi, Uels Universiteti, Böyük Britaniya. Səh 70-71.
3. Белозубенко В.С. Инновационная конкуренция: этимология и сущность понятия. С 106 (Belozubenko V.S. - İnnovativ Rəqabət: anlayışın mahiyyəti və etimologiyası)
4. Hacızadə E. M. (2015). Xəzər  hövzəsi regionunun iqtisadi potensialı və ixrac infrastrukturu. Azərbaycanın Vergi Jurnalı  4(124)
5. http://www.president.az/files/future_az.pdf  - Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı
6. http://www.stat.gov.azAzərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsi.
7. Əli Həsənov. Azərbaycanın Geosiyasəti. Dərslik s.127  Bakı - 2015
8. İsmət Abasov. (2013). Azərbaycanın və Dünya ölkələrinin kənd təsərrüfatı. s. 10. Bakı.
9. Concurrent Engineering Approaches within Product Development Processes for Managing Production Start-up phase. Sajjad Ebrahimi M. 2011 p.19. Thesis work. – İstehsalın başlanğıc mərhələsində məhsulların təkmilləşdirilməsi üçün eynizamanlı mühəndis metodları. Səccad İbrahimi M. 2011 səh 19. Tədqiqat işi.
10. http://www.doingbusiness.org/data/exploreeconomies/azerbaijan#trading-across-borders  - Dünya bankının saytı

11. A.Əliyev, A.Şəkərəliyev, İ.Dadaşov. (2003). Dünya iqtisadiyyatı: Müasir dövrün problemləri Bakı. s.278
12. Abbasov A.B. Biznesin innovasiyalı inkişafının konseptual əsasları. Azərbaycanın Vergi Jurnalı 1(121)/2015.
13. Ələsgər Sarıyev. Beynəlxalq əmək bölgüsü xarici iqtisadi əlaqələrin əsasıdır. Respublika qəzeti. 07 Yanvar 2015.

**Саркарлы Ахмед Саркар оглы**
докторант, Азербайджанский Государственный Университет Нефти и Промышленности

**Аннотация**

**Основные факторы повышения конкурентоспособности Азербайджанской экономики в современный период: теоритический и методологичечкий подход**

*Цель исследования* – анализ теоретических и методологических проблем в связи с определением основных условий и факторов, влияющих на конкурентоспособность экономики Азербайджана.

*Методология исследования* - комплексный подход и анализ.

*Результаты исследования* – определение ключевых факторов, влияющих на конкурентоспособность и повышение специфических свойств конкурентоспособности.

*Ограничения исследования* – в связи с тем, что в Азербайджане развитие ненефтяного сектора является приоритетным направлением, требуется широкое расследование проблем продвижения национальных продуктов на местных и зарубежных рынках;

*Практическая значимость исследования* – использование исследования и усовершенствования в процессе повышения конкуренции;

*Оргинальность и научная новизна исследования* – оказание влияния на устойчивость экономики страны и укрепление конкурентоспособности на основе международных стандартов в рамках меняющихся требований, как самый важный фактор совершенствования продукции.

**Ключевые слова:** *конкурентоспособность, инновации, производственные факторы, разработка продукта,экономический рост.*

**Sarkarli Ahmad Sarkar oglu**
PhD student, Azerbaijan State Oil and Industrial University

**Abstract**

**Main factors for increasing competitiveness of Azerbaijan economy in modern time: theoretical and methodological approach**

*Purpose* – conditions and factors affecting the competitiveness of the economy of Azerbaijan in connection with the determination of the theoretical and methodological problems in the investigation.

*Design/methodology* – an integrated approach and analysis.

*Findings* – identification of the key factors influencing the competitiveness and enhancing the specific properties of competitiveness .

*Research limitations* – due to the fact that in Azerbaijan, development of non-oil sector is a priority, it requires a broad investigation into the issues of promotion of national products on the local and foreign markets.

*Practical implications* – the use of research and development in the process of increasing competition.

*Originality/value* – influencing the stability of the country and strengthening the competitiveness of the economy based on international standards within the requirements, changing as the most important factor in product development.

**Keywords:** *competitiveness, innovation, product development, production resources, economic growth.*

**JEL Classification Codes:** D20, D24, O11

Məqalə redaksiyaya daxil olmuşdur: 24.10.16.
Təkrar işləməyə göndərilmişdir: 02.11.16.
Çapa qəbul olunmuşdur: 01.06.17.